# MƏTNŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2025.2.3
UOT: 801.73

**Rübabə Şirinova**
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: rubaba.sirinova@mail.ru*

## TƏBRİZDƏ YARADILMIŞ KİTABXANALAR VƏ TƏBRİZLİ ALİMLƏR

**Xülasə**

XIII əsrin sonu – XIV əsrin əvvəllərində Qazan xanın (1295-1304) hakimiyyəti dövründə Təbriz Yaxın və Orta Şərqin ən böyük elm və mədəniyyət mərkəzlərindən biri idi. Qazan xan dövlət fərmanlarını və qanunvericilik sənədlərini qorumaq məqsədilə "Beyt əl-Qanun" ("Qanun Evi") adlı ixtisaslaşmış bir kitabxana təsis etmişdi. Bu kitabxanada rəsmi sənədlərin əsli saxlanılır, vilayətlərə isə surətləri göndərilirdi. Bundan əlavə, Qazan xan artan əlyazma kitab fondunu yerləşdirmək üçün "Beyt əl-Kutub" ("Kitablar Evi") adlı daha bir kitabxana da inşa etdirmişdir. Eyni dövrdə Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin (1247-1318) inşa etdirdiyi və 600.000 kitab fondu olan Rəşidiyyə (Rəb-i Rəşidi) şəhərciyi də Təbrizin elmi potensialını daha da artırmışdı. Bu mərkəzlər yalnız yerli alimlərin deyil, həm də digər ölkələrdən gələn mütəxəssislərin fəaliyyətinə şərait yaratmışdı. Məqalədə Təbrizin bu zəngin mədəni mühitindən bəhrələnərək yetişən görkəmli alimlərdən, o cümlədən filoloq, Azərbaycanın ilk mətnşünas alimi Xətib Təbrizi (1030-1109), Qarabağda anadan olmuş filosof və ilahiyyatçı alimi Mövlana Muhiyiddin Məhəmməd Qarabaği (vəfatı 535-ci il) və onların Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əsərləri təhlil olunur.

***Açar sözlər:*** *əlyazma, kitabxana, mətnşünas, alim, ölkə*

### Giriş

*Azərbaycan əlyazma kitabı ən qədim dövrlərdən başlayaraq XX əsrə qədər uzun bir yol keçmişdir. Bu mədəniyyət inciləri mövzu və məzmun baxımından çoxşaxəli və zəngin olduğu kimi, onların yaranma tarixi də çox qədimdir.*

*Xalqımızın orta əsrlərdə yaratdığı zəngin mənəvi irsin bir qismini təbii fəlakətlər, müharibələr, dini və siyasi fanatizm məhv etmişdir. VII-IX yüzilliklərdə Azərbaycanın şəhərlərində zəngin kitabxanalar fəaliyyət göstərirdi. Bu kitabxanalara nümunə olaraq, Şamaxı şəhərində "Dərul-ədəb" ("Ədəbiyyat evi") adlı akademiya, onun nəzdində isə zəngin bir kitabxana, Yaqut əl-Həmavi Gəncədə "Dərul-kutub" ("Kitablar evi") adlı böyük bir kitabxananın və onun xəzinədarının Həddad ibn Bəkran Əbul-Fadl Naxçivani olduğunu yazır [1.III, s.371].*

Təbriz öz mədəniyyət tarixinin zənginliyi və qədimliyi baxımından yalnız Şərqdə deyil, bütün dünyada şöhrət tapmış Azərbaycanın ən böyük şəhərlərindən biridir. Bu şəhər Azərbaycan xalqına onlarla elm və mədəniyyət xadimləri vermişdir. Təbriz XIII əsrin II yarısından etibarən sürətlə inkişaf edərək, nəinki Azərbaycanın, həm də Yaxın və Orta Şərqin ən böyük ticarət və mədəniyyət

mərkəzlərindən birinə çevrilmişdir. Qazan xanın (1295-1304) dövründə şəhər özünün görünməmiş inkişaf mərhələsinə çatmışdır. Təbrizin Şam adlanan ətraf hissəsində tikilmiş və Şam Qazan, yaxud Şənbi-Qazan adı verilmiş şəhərcikdə ayrı-ayrı elm və tədris ocaqları, böyük kitabxanalar, xəttatlıq və rəssamlıq emalatxanaları fəaliyyət göstərmişdir. Qazan xan dövlət sənədlərini saxlamaq üçün burada "Beytul-qanun" ("Qanun evi") adlı kitabxana tikdirmişdir. Daha sonra isə, ildən-ilə artan kitabların mühafizəsi və istifadəsi üçün "Beytul-kutub" ("Kitablar evi") adlı yeni bir kitabxana da inşa etdirmişdir.

Qazan xanın vəziri, görkəmli dövlət xadimi Fəzlullah Rəşidəddin tərəfindən XIV əsrin əvvəllərində Rəşidiyyə (Rəb-i Rəşidi) universitet-akademiya şəhərciyi idi. Bu kompleksdə mədrəsələr, karvansaralar, emalatxanalar və 600.000 kitaba malik nəhəng bir kitabxana fəaliyyət göstərirdi. Rəşidiyyədə yerli sənətkarlarla yanaşı Çin, Hindistan və İran kimi ölkələrdən də dəvət olunmuş xəttatlar, rəssamlar və cildçilər çalışırdı. Kitabxananın fonduna müxtəlif elm sahələrinə aid əsərlər gətirilir və onların qorunması üçün xüsusi işlər aparılırdı. Bu xəzinə, alimlərə əlyazmaların üzünün köçürməsinə icazə verilən ümumi kitabxana kimi xidmət edirdi. Rəşidəddin özünün məşhur "Cami ət-Təvarix" əsərinin nəfis nüsxələrini burada hazırlatdıraraq digər dillərə tərcümə etdirmiş və yayılmasını təmin etmişdir. Həmçinin, Rəşidiyyə kompleksində yaşayan 400 alim və 200 Quran hafizi üçün xüsusi yaşayış evləri tikilmişdi. Bu mərkəzlər Təbrizin Yaxın və Orta Şərqin ən böyük elm və mədəniyyət ocaqlarından biri kimi şöhrətini təsdiqləyirdi.

***Fəzlullah Rəşidəddin və inşa etdirdiyi "Rəb-i Rəşidi" universiteti***

Qazan xanın vəziri, görkəmli alim Fəzlullah Rəşidəddinin (1247-1318) XIV əsrin əvvəllərində Təbrizin şimali-şərq hissəsində inşa etdirdiyi universitet şəhərciyi Təbrizin böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. Rəşidiyyə adlandırılmış bu şəhərcikdə 24 karvansara, 1500 dükan, təqribən 30000 yaşayış evi, mədrəsələr, 24 karvansara, 1500 dükan, təqribən 30000 yaşayış evi, mədrəsələr, 60000 kitab fondu olan kitabxana, məscidlər, yun parça və kağız karxanası, müxtəlif emalatxanalar və s. olmuşdur. Buraya başqa şəhərlərdən xəttatlar dəvət olunmuş, İrandan, Çindən, Hindistandan müxtəlif elm sahələrinə dair kitablar gətirilmişdir. Buradakı kitabxanalar bir növ ümumi kitabxanalar kimi fəaliyyət göstərmişdir və onların "Camei-təsanifi-Rəşidi" adlı fehristi də tərtib edilmişdir [2.II, s.148 ].

***Xətib Təbrizi: Filoloq, mətnşünas alim***

Təbrizin "Beytul-qanun", "Beytul-kutub" kimi kitabxanalarından bəhrələnərək yetişən görkəmli alimlərdən biri də Xətib Təbrizidir (vəfatı 1109-cu il). O, ilk təhsilini Təbrizdə alsa da, sonradan Şama gedərək Əbul-Əla əl-Mərridən dərs almış və bilik səviyyəsinə görə dövrünün ən nüfuzlu təhsil ocaqlarından biri olan Bağdaddakı Nizamiyyə Universitetində 40 ildən artıq Ədəbiyyat elmləri kafedrasının ilk rəhbəri və kitabxana müdiri vəzifələrində çalışmışdır. On minlərlə nadir əlyazmaya malik olan zəngin kitabxanasının müdiri təyin edilməsi onun nə qədər dərin zəka və istedad sahibi olduğunu, artıq gəncliyində dövrünün ən görkəmli filoloqlarından yüksəkdə durduğunun əyani surətdə sübutudur [3, s.40]. Xətib Təbrizinin əsərləri dünya kitabxanalarında, muzeylərində və əlyazma xəzinələrində qorunub saxlanır. Əlyazmalar İnstitunun xəzinəsində onun üç əsəri; bir əlyazması, bir əski çap kitabı, bir əsərinin də mikrofilmi və bu mikrofilmin əsasında üzü çıxarılmış fotosurəti mühafizə olunur. Əlyazmalar İnstitutun xəzinəsində ən qədim yazılı abidələrdən biri görkəmli dilçi İsmail əl-Cövhərinin "əs-Sihah fil-luğə" adlı əsərinin əlyazmasıdır. İsmail əl-Cövhərinin xəzinəmizdə qorunan "əs-Sihah fil-luğə" əsəri Dağıstanlı alim Məhəmməd Şəfi'inin kolleksiyasında saxlanır. Bu əlyazma XVII əsrdə Şam (Dəməşq) şəhərindən gətirilmişdir. Əsərin bu nüsxəsi hicri 510-cu ilin ramazan ayında (yanvar 1117) katib Əli bin Əbdülcəlil bin Əli bin Məhəmməd tərəfindən köçürülmüşdür. Bu dəyərli, qədim yazılı abidə, Əbu Səhl əl-Hərəvinin avtoqrafdan köçürdüyü əlyazması ilə Xətib Təbrizi tərəfindən tutuşdurularaq, təshih edilmiş nüsxədən yazılmışdır. Bununla əlaqədar əsərin birinci hissəsinin sonundakı kalafonda katib belə yazır: "Bu hissənin hamısını ər-Rza Əbulqasim Əli bin Tərrad əz-Zəbininin nüsxəsindən köçürdüm. Bu nüsxə (yəni əz-Zəbininin nüsxəsi ) isə, "əs-Sihah" kitabının müəllifi Əbu Nasr İsmail bin Həmmad əl-Cövhərinin xətti ilə yazılmış avtoqrafdan Əbu Səhl əl-Hərəvinin xətti ilə köçürülmüş və Əməvilər ağsaqqalı Əli-Tahirə məxsus olan nüsxə ilə şeyx, imam Əbu Zəkəriyyə Yəhya Əli əl-Xətib ət-Təbrizi tərəfindən

tutuşdurulmuş, təshih edilmiş və aşkarlanan fərqli cəhətlər (əlyazmanın haşiyələrində-Ş.K.) yazılmışdır [1. III, s.223]. Əsərin bu hissəsini heç bir əlavə, yaxud ixtisar etmədən, köçürülən nüsxədə olduğu kimi düzgün yazmağa və diakritik nöqtələrini qoymağa çalışdım. Onu (yəni bu hissəni-Ş.K.) hicri 510-cu ilin ramazan ayında Mədinətu-s-sələmdə (Bağdadda) Əli bin Əbdücəlil Əli bin Məhəmməd yazıb başa çatdırdı". Yuxarıda deyildiyi kimi katib, Xətib Təbrizinin əlyazmanın haşiyələrində qeyd etdiyi nüsxə fərqlərini, izahları olduğu kimi bu əlyazmasına köçürmüşdür. Burada bir sıra mətnşünaslıq işarələrinə də təsadüf edilir [4. III, s.223]. İsmail əl-Cövhərinin "əs-Sihah fil-luğə" əsəri haqqında Əlyazmalar İnstitutunun keçmiş əməkdaşı N.Z.Xəlilova "Əlyazmalar xəzinəsində" jurnalının VI cildində "Əs-Sihah"ın Bakı nüsxələri adlı məqaləsində M–389 şifrli əlyazmaya [5. III, s.223] geniş şəkildə toxunaraq yazır ki: " Əlyazmanın 120b vərəqində "Mən bu hissəni hörmətli, cənab, dinin şərəfi, islamın dayağı, dövlətin sağ əli, iftixarı, böyüklər böyüyü, alicənab Rza Əli bin Tərrad əz-Zəbniyə məxsus olan bir nüsxədən köçürdüm, Allah ona imkanlar açsın. Onu şeyx İmam Əbu Zəkəriyyə Yəhya Əli əl-Xətib ət-Təbrizi − Allah ona rəhm etsin − təshih etmiş, əsli ilə tutuşdurmuş və oradakı səhvləri düzəltmiş və öz xətti ilə yazmışdır... Bu iş 510-cu ilin ramazan ayında sona çatmışdır. Onu Əli bin Əbdülcəlil Əli bin Məhəmməd Bağdad şəhərində yazmışdır" – qeyd olunub. Verilən araşdırmalar sübut edir ki, Azərbaycanın mütəfəkkir alimi Xətib Təbrizi hələ XI yüzillikdə ədəbiyyatşünaslığın ən mühüm sahələrindən biri olan mətnşünaslıq elminin inkişaf etdirilməsində ciddi fəaliyyət göstərmişdir [1.III, s.223,231; 6.VI, s.58].

Xətib Təbrizi ilə bağlı digər bir məlumatı isə N.Z.Salayevanın ""Əs-Sihab"ın bəzi xüsusiyyətlərinə dair" adlı məqaləsindən alırıq. O, əsər haqqında yazır: "Xətib Təbrizinin ərəb dilçiliyi sahəsindəki fəaliyyətində, əsasən, iki cəhət nəzərə alınmalıdır: Birincisi, onun məşhur ərəb dilçilərinin əsərlərinə şərhlər yazması, ikincisi isə klassik izahlı ərəb lüğətlərindəki səhvlərə düzəliş verməsidir. Görkəmli Azərbaycan aliminin ərəb dilçiliyi sahəsindəki elmi fəaliyyətinin ikinci cəhəti ərəb mənbələrində lazımi səviyyədə qiymətləndirilməmişdir" [ 6.VI, s.58].

Halbuki, İsmayıl əl-Cövhərinin yuxarıda haqqında danışdığımız lüğətinin ilk dəfə gözəl şərhini verən məhz Xətib Təbrizi olmuşdur. Bəzi ərəb mənbələrində Xətib Təbrizinin İsmayıl əl-Cövhərinin "əs-Sihah" lüğəti haqqındakı aşağıdakı qeydlərinə təsadüf edilir: Təbrizi yazır: ""Əs-Sihah" gözəl tərtib edilmişdir. Onunla asanlıqla mətləbə çatmaq olar. Burada yaxşı sözlər verilmiş və dilçiliyin problemləri izah olunmuşdur. Bununla yanaşı, onda səhvlər vardır. Şübhə yoxdur ki, onlar xəttatlar tərəfindən deyil, bəlkə də müəllifin özündəndir, çünki kitab hərflər üzərində qurulmuşdur və bu cür böyük əsərlər səhvdən xali ola bilməz. Əsərin bir çox üstünlükləri qarşısında bu səhvlər güzəşt olunmalıdır".

Şərq və qərb alimlərinin tədqiqat obyektinə çevrilmiş zəngin yaradıcılığı ilə şərhçilik sənətini elmi baxımdan özünün ən parlaq zirvəsinə yüksəltmiş Xətib Təbrizi Şərqin başqa filoloqlarından fərqli olaraq, tədqiqata cəlb etdiyi əsərləri birtərəfli deyil, ilk dəfə olaraq hərtərəfli şərh etmiş və onların mükəmməl mətnlərini tərtib etmişdir. Bu da onun ədəbiyyatşünaslığa gətirdiyi çox mühüm bir yenilik idi. Məşhur hədis alimi İmam Əbu Məhəmməd əl-Hüseyn ibn Məsud ibn Məhəmməd əl-Fərra əl-Bəğəvi əş-Şafii (vəfatı təqribən 516/1122-ci il ) tərəfindən yazılmış mötəbər hədis kitabı olan "Məsabih əs-Sünnə" [7.V, s.357] əsərinə Xətib Təbrizi "Mişkatül-məsabih" adlı bir şərh yazmışdır [8.V, s.100]. "Mişkatül-məsabih" (مِشْكَاةُ الْمَصَابِيح) məşhur hədis kitabıdır. Bu əsər, İslam dünyasında ən mötəbər hədis məcmuələrindən biri hesab olunur və bir çox dillərə tərcümə edilmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyamalar İnstitutunda V-333/1886 şifri altında mühafizə olunan "Mişkatül-məsabih" əsərinin qədim çap nüsxəsi ilkin olaraq tərəfimizdən aşkarlanmışdır".

Xətib Təbrizi ilk olaraq kitaba müqəddimə yazmış, burada Allaha həmd-səna etdikdən, Peyğəmbərə (s), onun Əhli-beytinə (ə.s) və səhabələrinə salam və salavat göndərdikdən sonra Əbu Məhəmməd Hüseyn ibn Məsud əl-Bəğavinin "Kitabül-məsabih" əsərinin əhəmiyyətindən danışmış, daha sonra isə o kitaba yazdığı şərhdən bəhs etmişdir. Xətib Təbrizi yazdığı "Mişkatül-məsabih" əsərinə hədislər əlavə etmiş, bablara ayırmış, səhabələrin adlarını qeyd etmiş, hədislərə çox yerdə hökm vermiş və hədislərin hansı əsərlərdə keçdiyini zikr etmiş, beləliklə də ortaya tam bir əsər qoymuşdur. Xəzinəmizdə mühafizə olunan bu abidə, Hindistanın Bombey şəhərində "əl-

Məhəmmədi" mətbəəsində 1282/1865-ci ildə çap olunub. Çap kitabı mətnşünas alim Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarizadənin kitabxanasında mühafizə olunur.

**Məhəmməd Qarabaği: Təbriz Məktəbinin Osmanlı Elminə İnteqrasiyası**

XV-XVI əsrlərdə yaşamış fəqih və mütəfəkkir Mövlana Muhiyəddin Məhəmməd Qarabaği Təbrizdə təhsil almış, lakin sonrakı fəaliyyətini Osmanlı İmperiyasının mərkəzlərində, xüsusilə İznikdə müəllim kimi davam etdirmişdir. Bu, Təbrizdə formalaşan elmi ənənənin Osmanlı coğrafiyasına inteqrasiyasının və yayılmasının ən bariz nümunələrindən biridir.

O, bir sıra əsərlərin müəllifidir: "المحاضرات في الغرور وسالب السرور جالب" "Calib əs-surur va salib əl-ğurur fil-muhadarat" adlı kitabı, Cəlaləddin Dəvvaninin "الواحب ثباتِا" "İsbətul-vacib" əsərinə "للدوانى الواحب ثباتِا رسالة شرح" "Şərhu risaləti isbətil-vacib lid-Dəvvani", böyük təfsir alimi Beyzavinin "التاويل أسرار و التنزيل انوار" "Ənvarut-Tənzil va Əsrarut-Təvil" adlı əsərinə " على تعليقات وتفسير الكشاف البيضاوى" "Təliqatu alə əl-Kəşşaf va təfsiru əl-Beyzavi" adlı təliqatı, XII əsrdə Buxarada yaşamış Hənəfi fiqh alimi və müctehidi Əbul Həsən Burhanəddin Əli bin Əbubəkr bin Abdulcəlil əl-Fərğani əl-Marqinani ər-Riştaninin "الهداية" "əl-Hidayə" əsərinə "الهداية التلويح" "ət-Təlvih ul-Hidayə", XIII əsr Hənəfi fiqh alimi Sədr əş-Şəriə əl-Əvvəlin "وقاية الهداية مسائل فى الرواية" "Viqayə ər-Rivayə fi-məsail əl-Hidayə" əsərinə "الشريعة لصدر الوقاية شرح" "Şərhul-Viqayə li-Sədr əş-Şəriə" adlı şərhi və Ədudəddin Əbdürrəhman bin Əhməd əs-Siddiqi əl-İcinin "البحث آداب" Ədəbül-bəhs" əsərinə, "شرح البحث آداب" "Şərh ədəb əl-bəhs" (9. V,9794) adlı şərhlər yazmışdır. Müsəlman Şərqinin görkəmli alimlərindən biri olan Ədudəddin Əbdürrəhman bin Əhməd əs-Siddiqi əl-İcinin (680-756/1281-1355) polemikanın aparılması üsullarına həsr edilmiş "Ədəb əl-bəhs" adlı əsərinə Məhəmməd Qarabaği şərh yazmış və onu "Şərh ədəb əl-bəhs" adlandırmışdır. Bu şərh kitablara müxtəlif adlarla düşmüşdür: " العضدية الرسالة شرح" "Şərhu ər-risalətil-Ədudiyyə" və "الحنفية شرح" "əş-Şərhul-Hənəfiyyə". Bu əsərin dünya kitabxanalarında, həmçinin Əlyazmalar İnstitutunda onlarla nüsxələri qorunub saxlanır. XX yüzilliyin əvvəllərinə qədər ali təhsil məktəblərində ritorikaya aid tədris vəsaiti kimi istifadə edilmiş "Şərh ədəb əl-bəhs" əsəri alimlərin diqqətini özünə çəkərək həmin dövrdə geniş yayılmışdır. "Şərh ədəb əl-bəhs" əsərinə bir çox alimlər haşiyələr də yazılmışlar. Buna misal olaraq XV əsr alimi Mir Əbül-Fəth Məhəmməd Tac əs-Səidi əl-Ərdəbilinin haşiyəsini göstərmək olar (10.I, s.272-273). Ərdəbilinin yazdığı " Haşiyə alə şərh ədəb əl-bəhs" əsərinin XVII-XIX əsrlərdə köçürülmüş 24 nüsxəsi Əlyazmalar İnstitutunun tərtib etdiyi "Ərəbdilli əlyazmaların kataloqu" adlı kitabın I cildinə daxil edilmişdir.

**Nəticə**

*Qazan xanın dövründə yaradılan "Beyt əl-Qanun" (Qanun Evi) və "Beyt əl-Kutub" (Kitablar Evi) adlı kitabxanalar, eyni dövrdə Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin (1247-1318) inşa etdirdiyi və 600.000 kitab fondu olan Rəşidiyyə (Rəb-i Rəşidi) şəhərciyi və bu mərkəzlərə gələn mütəxəssislərin fəaliyyətini araşdırmaqdır. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində qorunan əsərlər bu müəlliflərin tədqiqatlarının elmi dəyərini və Təbrizin orta əsrlərdə Şərqin elmi tarixindəki müstəsna rolunu bir daha təsdiqləyir. Bu irsin daha dərindən araşdırılması, Azərbaycanın mədəniyyət və elm tarixinin kompleks şəkildə öyrənilməsi üçün vacibdir.*

**Ədəbiyyat siyahısı:**

1. Şərifli K.K. Əsərləri/K.K.Şərifli. III c. – Bakı: Elm və təhsil, - 2019, - 431 s.
2. Şərifli K.Əsərləri II, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,Bakı -2019, 431.
3. Əbilova Z.B. Xətib Təbrizi Azərbaycan mətnşünaslığının ön sözü/Z.B.Əbilova. Bakı: "Elm və Təhsil", - 2022. – 230 s.
4. N.Z. Əs-Sihahın Bakı nüsxələri/ Xəlilova N.Z. Azərbaycan CCR Elmlər Akademiyası Əlyazmalar xəzinəsində. VI. – Bakı: Elm nəşriyyatı, – 1983, – 145 s.

5. Əl-Cövhəri İsmail. "əs-Sihah fil-lüğə". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, M-389. ƏYİ.
6. Salayeva N.Z. "Əs-Sihab"ın bəzi xüsusiyyətlərinə dair//N.Z.Salayev. Azərbaycan CCR Elmlər Akademiyası "Əlyazmalar xəzinəsində". V c.. – Bakı: Elm nəşriyyatı, – 1979, – 130 s.
7. Mevlüt Güngör, Begavi Ferra. TDVİA, V c. – İstanbul: – 1992, – 582 s.
8. Xətib Təbrizi "Mişkatül-məsabih".AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, V-333/1886.
9. Dünya Kütüphanelerinde Mevcut İslam Kültür Tarihi İle İlgili Eserler Ansiklopedisi Hazırlayanlar:Ali Rıza Karabulut – Ahmet Turan Karabulut V,3050 – 4069 s., İstanbul 1998.
10.Каталог арабских рукописей. I т. – Баку: Нурлан, - 2008, - 397 с.

**Rubaba Shirinova**

## Libraries established in Tabriz and scientists from Tabriz

***Summary***

During the reign of Qazan Khan (1295-1304) in the late 13th and early 14th centuries, Tabriz was one of the largest centers of science and culture in the Near and Middle East. Qazan Khan established a specialized library called "Beyt al-Qanun" ("House of Law") to preserve state decrees and legislative documents. The original official documents were kept in this library, and copies were sent to the provinces. In addition, Qazan Khan built another library called "Beyt al-Kutub" ("House of Books") to house the growing collection of manuscripts. At the same time, the Rashidiyya (Rab-i Rashidi) town, built by Qazan Khan's vizier Fazlullah Rashid al-Din (1247-1318) and containing 600,000 books, further increased the scientific potential of Tabriz. These centers created conditions for the activities of not only local scholars, but also specialists from other countries. The article analyzes prominent scholars who benefited from this rich cultural environment of Tabriz, including philologist, the first textual scholar of Azerbaijan Khatib Tabrizi (1030-1109), philosopher and theologian Mevlana Muhiyiddin Mahammad Karabakhi (died 1535), and their works preserved at the Mahammad Fuzuli Institute of Manuscripts of the Azerbaijan National Academy of Sciences.

***Keywords:*** *manuscript, library, textual scholar, scholar, country*

*Filologiya elmləri doktoru, professor*
***Kamandar Şərifov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*